Tariximizin şərəfli səhifələrindən biri olan Azərbaycan Xalq Cümhuriyyətinin (AXC) yaradılmasının ideya müəllifindən biri də Fətəli xan Xoyski idi. Fətəli xan Xoyski hüquqşünas və dövlət adamı, həm də müstəqilliyimiz uğrunda mübarizə aparan əsl vətənpərvər idi. O, Xalq Cümhuriyyəti hökumətinin təşkili işinə rəhbərlik etmiş və dövlətin təməl prinsiplərinin müəyyənləşdirilməsində mühüm rol oynamışdır.

Cümhuriyyət idealları həyatının amalı olan Fətəli xan Xoyski

Fətəli xan İskəndər xan oğlu Xoyski 1875-ci ildə Nuxada, Şəki şəhərində dünyaya göz açmışdır. Atası İskəndər xan Xoyski Rusiya İmperiyasının Kazak leyb-qvardiyasında general-leytenant rütbəsinə yüksəlmiş hərbçi, anası Şərəbanı xanım isə Şəki xanları sülaləsindən Hacı Molla Zeynalın qızı idi. Fətəli xan təhsilini Gəncə şəhərində yerləşən klassik gimnaziyada almışdı. 1897-ci ildə Moskva Universitetinin hüquq fakültəsini fərqlənmə diplomu ilə bitirən Xoyski Tiflis Məhkəmə Palatasının qərarı ilə Gəncə Dairə Məhkəməsində kiçik məhkəmə məmuru vəzifəsinə təyin olunmuşdur. Dövrünün yüksək savadlı hüquqşünaslarından biri kimi tanınan Fətəli xan zaman keçdikcə daha böyük vəzifələrə irəli çəkilmişdir. 1907-ci ildə Fətəli xan Gəncə quberniyasından 2-ci Dövlət Dumasına müstəqil millət vəkili olaraq seçilmişdir.

1917-ci ildə Rusiyada baş verən fevral inqilabından sonra siyasi arenaya gəlmişdir. Onun fəaliyyətinin ən parlaq dövrlərindən biri də çar idarəçiliyinin devrildiyi illərə təsadüf edir. Həmin ilin aprel ayında Bakıda keçirilən Ümumqafqaz Müsəlmanlarının Qurultayında Xoyski həm təşkilati işlərdə ön sıralarda yer almış, həm də qurultayın əsas iştirakçılarından biri kimi çıxış etmişdir. 1917-ci ilin noyabr ayında Oktyabr inqilabı nəticəsində Tiflisdə Zaqafqaziya Komissarlığı yaradılmışdır. Bir il sonra fevralın 23-də isə burada Zaqafqaziya Seymi fəaliyyətə başlamışdır. Bu orqanın tərkibi Ümumrusiya Müəssislər Məclisinə Zaqafqaziyadan seçilmiş nümayəndələrdən ibarət idi. Seymin Azərbaycan fraksiyasının üzvləri arasında yer alan 44 deputatdan biri də Fətəli xan Xoyski olmuşdu. Dövlət Dumasının iclaslarında "Müsəlman fraksiyası" adından çıxış edən Fətəli xan çar Rusiyasının zülmü altında yaşayan müsəlman-türk xalqlarının haqlarını qorumaq uğrunda yorulmadan mübarizə aparırdı. O, çar rejiminin milli və dini ayrı-seçkilik siyasətinə qarşı cəsarətlə çıxış edirdi.

1918-ci il mayın 26-da Zaqafqaziya Seymi sonuncu iclasını keçirir. Seymin buraxılmasından bir gün sonra, mayın 27-də müsəlman-türk fraksiyası, yəni azərbaycanlı nümayəndələr Tiflisdə fövqəladə toplantıda Azərbaycan Milli Şurasının təsis edilməsinə qərar verirlər. Həmin iclasda Məhəmməd Əmin Rəsulzadə Milli Şuranın sədri, Fətəli xan Xoyski isə İcraiyyə Komitəsinin rəhbəri seçilir. Uzun müzakirələrdən sonra

Azərbaycan Milli Şurasının üzvləri özlərini rəsmi olaraq müstəqil elan edir və ölkənin idarəçiliyini öz üzərlərinə götürürlər. Mayın 28-də Milli Şuranın ilk iclasında Azərbaycan Cümhuriyyətinin müstəqilliyi elan edildikdən sonra Fətəli xan Xoyski bütün şura üzvlərinin yekdil razılığı ilə müstəqil dövlətin ilk Baş naziri seçilir. Lakin Fətəli xan yalnız Baş nazir deyil, həm də daxili işlər naziri vəzifəsini də icra edib. Mayın 30-da isə bir çox dövlətə Azərbaycanın müstəqilliyinin elan edilməsi ilə bağlı radioqram göndərib.

Fətəli xan Xoyski rəhbərlik etdiyi hökumətdə ölkənin iqtisadi həyatını canlandırmaq, dəmiryolunu və poçt xidmətlərini bərpa etmək kimi mühüm addımlar atmışdır. O, Azərbaycanın çox çətin və mürəkkəb bir dövründə fəaliyyət göstərmiş, ölkənin gələcəyi, varlığı və müstəqilliyinin təhdid edildiyi illərdə böyük məsuliyyət daşıyan bir rəhbər olmuşdur. 1918-ci il sentyabrın 17-də Azərbaycan Xalq Cümhuriyyəti hökuməti Bakıya köçür və ölkənin yeni paytaxtı bura elan olunur. Beləliklə, bütün Şimali Azərbaycan ərazisi Fətəli xan Xoyskinin rəhbərlik etdiyi hökumətin nəzarəti altına keçir.

Fətəli xan Xoyski Azərbaycan Xalq Cümhuriyyətinin ədliyyə naziri (1918) və xarici işlər naziri (1918-1919 və 1919-1920) vəzifələrində mühüm işlər görmüşdür. Azərbaycanın müstəqilliyi elan etdikdən sonra Fətəli xan bütün varlığı ilə cümhuriyyətin inkişafı üçün fəaliyyət göstərmiş, onun rəhbərlik etdiyi dövrdə Azərbaycan bayrağı təsdiq edilmiş və ölkənin rəsmi simvolları müəyyən olunmuşdur. Bu bayraq ağ aypara və səkkizguşəli ulduzdan ibarət olub mavi, qırmızı və yaşıl rənglərlə bəzədilmişdir. Fətəli xan Xoyski bu çətin mərhələnin fəal iştirakçısı olmaqla, Azərbaycanın müstəqilliyi uğrunda mübarizə aparmışdır.

Lakin təəssüf ki, AXC çox yaşamadı. XI qırmızı ordu Bakıya daxil olaraq müsəlman Şərqində ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyətini işğal etdi. Bu hadisə dövlətin müstəqilliyinə, xalqın azadlıq arzularına ağır zərbə vurdu. Cümhuriyyətin qurucularına qarşı amansız təqiblər başladı. Bu təqiblər Fətəli xan Xoyskinin də həyatına son qoydu.

Azərbaycanın Xalq Cümhuriyyətinin hüquqi və siyasi əsaslarını qoymuş, dövlətin ilk hökumətinin təşkilinə rəhbərlik etmiş Fətəli xan Xoyski 1920-ci il iyunun 19-da Tiflisdə erməni millətçisi Aram Yerkanyan tərəfindən qətlə yetirilmişdir.

Fətəli xan Xoyskinin adı xalqımızın yaddaşında silinməz iz qoyub. O, dövlət quruculuğunda əvəzsiz xidmətləri, xalqın azadlıq arzularını gerçəkləşdirmək uğrunda apardığı mübarizə və dönməz qətiyyəti ilə bütöv bir millətin iradəsini və əzmini təcəssüm etdirirdi. Fətəli xan Xoyski dövlətçilik tariximizdə hüququn, ədalətin və müstəqillik prinsiplərinin təməlini qoymuş lider olaraq tarixə düşmüşdür.

Fətəli xan xalqına olan sevgisi və xidmətləri ilə gələcək nəsillərə azadlıq, ədalət, millətə bağlılıq dəyərlərinin vacibliyini göstərmişdir. Bütün bunlar sübut edir ki, böyük ideallara xidmət edən liderlər yalnız öz zamanlarında deyil, əsrlər boyu yaddaşlarda qalır və gələcək nəsillərə yol göstərir. Adı, vətənə olan misilsiz bağlılığı Azərbaycan xalqının milli şüurunun və azadlıq mübarizəsinin əbədi bir səhifəsi olaraq qalacaq, millətimizə daim güc və ilham verəcəkdir.

Ləman TƏHMƏZ,
"Respublika".